***Yaqub Məğrur***

## *Layla, Xocalım, layla*

Yağı gəldi yel kimi
Layla, Xocalım, layla
Qanın axdı sel kimi,
Layla, Xocalım, layla.

Xəyanətlə alındın,
Od-alova qalandın,
O gecə yağmalandın,
Layla, Xocalım, layla.

Hayına hay qatmadıq,
İmdadına çatmadıq,
Sənə əl uzatmadıq,
Layla, Xocalım, layla.

Daş üstə daş qalmadı,
Gözlərdə yaş qalmadı,
Bədənli baş qalmadı
Layla, Xocalım, layla.

Öldürüldü xocalar,
Qadın, uşaq, qocalar,
Tüstülənmir bacalar,
Layla, Xocalım, layla.

Yatdı başbilənlərin,
Çox oldu ölənlərin,
Girovda gəlinlərin,
Layla, Xocalım, layla.

Şəhid oldu mərdlərin,
Başdan aşdı dərdlərin,
İtkindi comərdlərin,
Layla, Xocalım, layla.

Şuşaya cüt Xocaydız,
Qarabağın tacıydız,
Bölgənin əlacıydız,
Layla, Xocalım, layla.

Baş əyirəm adına,
Yetəmmədik dadına,

Getdin namərd badına,
Layla, Xocalım, layla.

Neçə illər ötübdü,
Yolun, izin itibdi,
Ahın ərşə yetibdi,
Layla, Xocalım, layla.

Qoy olsun bu, son qəmin,
Azad olsun hər dəmin,
Yaqub Məğrur həmdəmin,
Layla, Xocalım, layla.

***Məğrur Y. Layla, Xocalım, layla // Gəlirəm Qarabağ. – Bakı : Yazıçı, 2014. – S. 28-29.***